

*Əhməd Qasımoğlu*

## *Qəlbində bir işıq oyana bilsə...*

Toz-duman alanda hər bir tərəfi
Bir addım qabaq da görünmür gözə.
Amma ki, yaxında, bəlkə səninlə
İlahi bir aləm durub üz-üzə.

Bəlkə, qızılgüllər bürüyüb səni?
Bəlkə, min əlvanlıq, sehr içindədi?
Bəlkə də, dindirsən sən hər birini,
Görərsən hamısı eşq bürcündədi...

Hələ ruhdan salır səni bu duman,
Hələ itirmisən özünü, qorxma.
Qəlbində bir işıq oyana bilsə,
Sənə yol göstərər, dumana baxma.

Köklən kainata, ətrafı unut,
Köklənsin ahəngə qəlbin telləri...
Gör dinən nəğmələr hara çağırır?
Ordadı ruhunun doğma elləri.

## *Dua*

Yanlış yer üzünü işğal eyləyir,
Allah, yer üzünün köməyinə gəl!
Ümidlər diz çöküb, daha inləyir
Allah, yer üzünün köməyinə gəl!
Əvvəl silahlarla cövlan eylədi,
Ağıllı başları kəsdi, teylədi,
Siyasət onunçün qara hiylədi
Allah, yer üzünün köməyinə gəl!
Xeyir kölə oldu şərin önündə,
Nuru öləzidi hər bir dinin də,
Hamıyla danışdı tamah dilində
Allah, yer üzünün köməyinə gəl!
Qadağan olunmuş meyvələr nəfsdi,
Nəfs bütöv deyilsə, qalan əbəsdi,
Bu dərd çox işığın yolunu kəsdi,
Allah, yer üzünün köməyinə gəl!
Ox, qılınc çevrilib oldu top-tüfəng,
Sonra bombalarla başladı min cəng,
İndisə viruslar artır rəngbərəng
Allah, yer üzünün köməyinə gəl!

## *Kükrə dərya tək, vətən!*

sular axır, tarix axır,
ömrümdəki ağrı məni
döyə-döyə
aparıb Araza yıxır,
Göyçə gölünə, Kürə, Samura,
Arpa çayına yıxır...

o sular yuya bilmir
ayrılıq göynəyini...

...hansı tərəfdən baxsan,
yaralı görünür Azərbaycan,
vətənini sevənlərin
ürəyində nala çəkir
qəzəb, kədər dolu qan...

yurdumu
xəncər kimi doğrayan,
bölük-bölük
özünü özündən ayıran
sərhəd xətləri
tarixin ögey əlidi,
dərdimizin heykəlidi...

qarışdıqca yer üzü,
yağı bizi sınayır,
zəif gördüyü yerə
quzğun kimi şığayır.

səbr etmək cinayətdir!
daha nə qədər dözmək?!
kükrə dərya tək, vətən,
bir kimsədən yox kömək!

kükrə qan yaddaşınla!
kükrə öz ağlınla sən,
əz düşmənin başını,
dünəninlə, sabahınla yox,
elə bu çağınla sən!

## *Qalx ordum, qalx!*

Allah qüvvət versin! Durma, qalx daha
Qələbə sənindir, müzəffər ordum!
Düşmən torpağımda batıb günaha
İt kimi qovala, çal zəfər, ordum!

Sənin arxandadır vətəndə hər kəs,
Düşmən namərd düşmən, əhdini kəs!
Vətən tapdanıbdı, əzmin müqəddəs
Sənə qoşulacaq hər nəfər, ordum!

Balamız - iblisdən dolaşıq hiylə,
Düşmən imkan gəzir, qudursun hələ.
Qoyma qəddimizi qırsın bu nalə
Vətəninə sevgisi saf, ər ordum.

Qorxma, səninlədir haqqın qüdrəti
Min-min ağlar qəlbdə yurdun həsrəti,
Rədd elə hər yandan məkri, vəhşəti
Qələbən qəlblərə bir cövhər, ordum!

## *Makiavelli**

Makiavelli!
hamıya bəlli!
sən dəbə saldın
bu mizanı:
"məqsəd yolunda
unuda bilərsən vicdanı,
Allahı, imanı...
nə edirsən et, ta ki
arzuna tez yet!"

aləmi bürüdü
bu məlun fətva,
hiylədən, fəsaddan
minalar düzdü
gələn sabaha.

paslı xəncərlə vurulmuş yara
dərin işlədi, dərin...
indi hər gün daha çox
bar verir dediklərin...

amma, aydın görünür, dövran
unudanda vicdanı,
Allahı, imanı....

yer üzünün
qan-qadadan qurtarmağa
qalmayır ta amanı...

---

**XVI əsrdə İtaliyada yaşamış, Avropada özündən sonrakı dövrün siyasətinə çox güclü təsir etmiş məşhur siyasətçi, diplomat, tarixçi*

## *Səndən sonra*

Eşqindən dərviş oldum,
Sirr oldum səndən sonra.
Dünyaları dolaşdım,
Sovruldum səndən sonra.

Axı, nədən, de, nədən
Yer oynadı yerindən?
Mən şah idim əzəldən,
Devrildim səndən sonra.

Tərlandım, göydən endim,
Qanadım didim-didim...
Daha dünyadan bezdim,
Yoruldum səndən sonra.

## *Yağış, bəlkə sən mənsən?*

xəbərin varmı, yağış,
ruhuma ruh olan kim?
özü bir nur yağışı,
mənim qəlbimə hakim

o sənin vurğunundu,
mənsə onun vurğunu
yağış, kim qurub belə,
bu ilahi qurğunu?

bəlkə, mən yağış olum?
bir dəfə də sən mən ol,
indi o uzaqdadı,
həsrətə tapaq bir yol.

ümidimə yağ, yağış,
ümidim pöhrələnsin,
qəlbinə güman düşsün,
eşqimlə cilvələnsin
yağış, bəlkə də elə
sən elə mən özümsən?...
yarın uzaqda hələ,
sən yazıq da dözmürsən...

## *Eşqdən o yana*

Eşqinlə eşqə çatdım, eşqi keçdim o yana...
Eşq də bir göy üzüdü, yol aldım kahkaşana...

İşıqlar vadisində həzin meh hardan əsir?
Elə bil, sübh üzüdü, qəlbim hara tələsir?

Yaxında gülüstan var, qırxlar aləmi bura?
Nələrsə gah görünür, gah da qərq olur nura.

Uçur işıqlar hərdən, bir ayrı aləmlərə,
Ordan gələn işıqlar nizam verir nələrə?

Bütün bu aləmdən bal kimi eşq süzülür,
Bir damla kimə dəysə, yer üzündən üzülür.

Təkcə eşqdən danışma, axtar eşq yaradanı,
Zərrədən asimana sən o qüvvəni tanı...

Qasımoğlu, aləmin deyilsən sirr açanı,
Sən tək sirr açanlar göydə ulduzlar sanı...

## *Məhkəmə*

mühakimə edilir bir cani məhkəmədə,
suallar dolu tənbeh, suallar dolu hədə...
hakim qəzəblə baxır bu müqəssir insana
müqəssirsə kədərli, gözləri batıb qana...
hər sözü təlaş dolu, danışır, səsi çıxmır,
gözlərin yerə dikib bir kəsə tərəf baxmır...
prokror bir tərəfdə, vəkillər bir tərəfdə,
zalda qohumlar, dostlar, insanlar dəstə-dəstə,
sanki, qan yağışı yağır bu zala,
hər insan dözə bilməz bu hala...

çağırın, məhkəməyə gəlsin onun anası,
görək hansı ülgüyə, harda o olmuş asi?
bu cani bətnindəykən əməlləri nə olmuş?
nədən onun balası indi bu günə qalmış?
doğru yoldan azaraq hansı səhvləri etmiş ?
bu cani körpə ikən ona nələr öyrətmiş?

çağırın, məhkəməyə gəlsin qohumlar, qonşular,
sözsüzdür bu, hər birinin məhkəməyə sözü var...
kim harda yadlıq etdi, kim nəyi əsirgədi?
kim ona hansı vədə yaxşılıq, pislik etdi?
kim vaxtında nədəsə ona əl uzatmadı?
onu doğması bilib, qayğısına qalmadı?

çağırın, məhkəməyə gəlsin
birinci sinif müəllimi...
özüylə gətirsin
o vaxtki jurnalı,
dəftəri, kitabı, qələmi...

...axı bu müqəssiri o vədə
bir nurlu körpə kimi
geyindiri-kecindirib, üzündən öpüb
əlinə gül dəstəsi vermişdilər...
böyük-böyük arzularla
birinci sinfə göndərmişdilər...
cani ol, deməmişdilər!

harda, nə zaman sındı o körpə?
kim sındırdı körpəni?
lənət olsun qəni-qəni!

onu yaxşı-yaxşı danışdırıb, oxşayıb
axtaran oldumu heç qəlbindəki işığı?
bilən oldumu nədi onun
ömrünün yaraşığı?
düşünən oldumu ki, bu körpə də
vətənin bir balasıdı?
düşmənlərin önündə
adıyla, varlığıyla
bir həsəd qalasıdır...

baxan oldumu damarından axan qana?
hansı soyun övladıdı, babalardan bu yana?
bəlkə, o körpənin qəlbində bir dahi vardı?
doğmaları görmədi, iblis alıb apardı?

çağırın, məhkəməyə onun bütün məktəbini,
axtaraq bu caniliyin əvvəlini, himini...

çağırın, cəmiyyəti, o yetişən mühiti,
oyadaq yuxusundan neçə qara qəfləti...

vətənin hər övladı vətənindən nur alsın,
insanların qayğısı, bir-birinə yar olsun!
qoruyaq hər körpəni dövranda bəlalardan,
onlara nur verək ki, nur gözləyək onlardan!

## *Azərbaycan qızı*

Sən anadan olanda
özündən əvvəl ad-sanın doğulardı
gün işığıtək...
yayılırdı elinə-obana,
el-oban
keşiyində durardı o işığın.

sən işıq içində yaşayardın,
işığa oxşayardın...

səni sevən
öz yarını, yarısını sevərdi,
qovuşardı sevgilisinə,
bütövləşərdi, mərdləşərdi, igidləşərdi...
göydən mələkələr enib gələrdi toyuna...

nağıllar dünyasında vüsala qovuşardın,
yuxularında mələklərlə yarışardın,
mələkələrə oxşayardın....

sənə, azad ol, deyirlər...
amma bu azadlığı sənin əyninə
üstü bulaşıqlı
fəhlə kombinzonutək geyindirirlər...

sən hökmən azad olmalısan, hökmən!
amma cəhalətdən azad olmalısan,
öz uçalığından yox!
öz ilahiliyindən, müqəddəsliyindən yox!
sən nadanlığın zülmündən azad olmalısan!
işvəndən, nazından, gözəlliyindən yox!

indi üstünə yeriyir dövran,
indi üstünə bağırır dövran,
təpikləyir səni dövran!
yurdumun sabahını təpikləyir dövran!

o qəddarın əlindən
səni ala bilmirəm, Azərbaycan qızı...
Allah kömək olsun, özün köməyim ol,
Azərbaycan qızı!
onun, bunun hay-küyünə inanma,
sənə özüm kömək olum, Azərbaycan qızı!

yenə dön mələkə ol,
sənə mələikəlik yaraşır Azərbaycan qızı!

## *Sübhün əvvəli*

...dünyanın nəfs əlində, qan gölündə
çırpınan zamanında,
işıqların kölgələrə
əsir düşdüyü vaxtda
mən də dünyadayam, İlahi!

...dünya qarşımda film kimidi,
rol oynayan deyiləm,
kənardan kövrək-kövrək
o filmə baxıram...

...dünyanı belə qoyub
dərgahına qayıtmağa utanıram,
borcumu unutmadan, yolumdan sarpmadan
əlimdən gələni edirəm, İlahi!

...sağda, solda, dörd yanda
kölgələr artırkən,
ayağımı qoyduğum daşlar yıxılırkən, batırkən...
dünyaya alışa bilmirəm...
kölgələrə qarışa bilmirəm...

...hər gün, hər gün
dərgahına gəlirəm, İlahi...

qaranlığından sübh üzü doğulur hər gün...
bilirəm, İlahi!

## *Ağlama, könlüm*

mən zamanla üz-üzəyəm,
dövranla kəllə-kəlləyə...
uğur axı hayandadı?
ya qismət,
gələ, gəlməyə...

qəlbim köklənib ahəngə,
bağ salıram cərgə-cərgə,
girmişəm iblislə cəngə,
bəxt üzə
gülə, gülməyə...

dövran qaçaq doğru yoldan,
dünya bezib qeylü-qaldan,
gen düşürük istiqbaldan,
alimlər
bilə, bilməyə...

dərdi dərdlərə bağlama,
dərdi sabaha saxlama,
dərdin önündə ağlama,
bir kimsə
bölə, bölməyə...